## 2003-cü il iyulun 10-da Moskva şəhərində keçirilmiş Müstəqil Dövlətlər Birliyinin Gömrük Xidmətlərinin Rəhbərləri Şurasının 37-ci iclası zamanı imzalanmış "Meyvə-tərəvəz məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı güzəştlərin təqdim edilməsi haqqında 21 may 1998-ci il tarixli sazişin müddətinin uzadılması haqqında Moldova Respublikası, Ukrayna, Belarus Respublikası, Rusiya Federasiyası və Azərbaycan Respublikasının gömrük xidmətləri arasında Protokol"un təsdiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2003-cü il iyulun 10-da Moskva şəhərində keçirilmiş Müstəqil Dövlətlər Birliyinin Gömrük Xidmətlərinin Rəhbərləri Şurasının 37-ci iclası zamanı imzalanmış "Meyvə-tərəvəz məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı güzəştlərin təqdim edilməsi haqqında 21 may 1998-ci il tarixli sazişin müddətinin uzadılması haqqında Moldova Respublikası, Ukrayna, Belarus Respublikası, Rusiya Federasiyası və Azərbaycan Respublikasının gömrük xidmətləri arasında Protokol" **təsdiq edilsin.**

2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən protokolun həyata keçirilməsini təmin etsin.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 23 oktyabr 2003-cü il**
**№ 1363**

**Meyvə-tərəvəz məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı güzəştlər verilməsi haqqında 1998-ci il 21 may tarixli Sazişin müddətinin uzadılması barədə Moldova Respublikası, Ukrayna, Belarus Respublikası, Rusiya Federasiyası və Azərbaycan Respublikasının gömrük xidmətləri arasında**
**PROTOKOL**

Meyvə-tərəvəz məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı güzəştlər verilməsi haqqında 1998-ci il 21 may tarixli Sazişin iştirakçıları olan, bundan sonra "Tərəflər" adlandırılacaq gömrük xidmətləri,

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazilərindən meyvə-tərəvəz məhsullarının daşınması üçün maneəsiz şəraitlərin təmin edilməsi məqsədi ilə,

meyvə-tərəvəz məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı güzəştlər verilməsi haqqında 1998-ci il 21 may tarixli Sazişin müddətinin 2001-ci il 7

iyun tarixli Protokola uyğun olaraq 2003-cü il mayın 21-də bitməsini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

1. Moldova Respublikası, Ukrayna, Belarus Respublikası, Rusiya Federasiyasının gömrük xidmətləri arasında meyvə-tərəvəz məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı güzəştlər verilməsi haqqında 1998-ci il 21 may tarixli Sazişin müddəti üç ilə uzadılsın.
2. Bu Protokol imzalandığı andan qüvvəyə minir.
3. Moskva şəhərində 2003-cü il iyulun 10-da beş nüsxədə imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir.

**Moldova Respublikasının**
**gömrük xidməti tərəfindən**
*(imza)*

**Belarus Respublikasının**
**gömrük xidməti tərəfindən**
*(imza)*

**Ukraynanın**
**gömrük xidməti tərəfindən**
*(imza)*

**Rusiya Federasiyasının**
**gömrük xidməti tərəfindən**
*(imza)*

**Azərbaycan Respublikasının**
**gömrük xidməti tərəfindən**
*(imza)*